UOT 65

GÜLARƏ ABBASOVA
Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin
"İctimai fənlər" kafedrasının dosenti, f.ü.f.d.
multikultural@mail.ru

MULTİKULTURALİZMİN MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN QORUNMASINDA ROLU

DOI: https://doi.org/10.36719/2708-065X/103/100-104

Multikulturalizmin Azərbaycan modeli milli və qlobal dəyərlərin birləşməsidir. Müəllif tarix boyu Azərbaycanda milli həmrəylik, tolerantlıq, qarşılıqlı anlaşma və hörmət, humanizm və qonaqpərvərlik, milli həmrəylik prosesi, bütün milli azlıqlar arasında dinlərarası, mədəniyyətlərarası və sivilzasiyalararası dialoq prosesində araşdırmalara cəlb etmişdir, etnik qruplar və millətlər qarşısında qoyduğu məqsədə çatmışdı. O, öz yaradıcılığında o qədər nikbin nəticə əldə edib ki, Qərbdə multikulturalizmin iflasa uğradığı bir şəraitdə Azərbaycan multikulturaliz modeli uğurla inkişaf edir və özünü bütün dünyaya ele gözəl model kimi göstərir.

Açar sözlər: multikulturalizm, milli dəyərlər, ümumbəşəri dəyərlər, Azərbaycan modeli, tolerantlıq, mədəni müxtəliflik, mədəni plüralizim, ənənəvi dəyərlər, milli azlıq və çoxluq.

Giriş. Multikulturalizm yeni anlayış olsa da qədim tarixə malikdir. Bu gün müasir dünyada müxtəlif etika mədəni və ümumbəşəri dəyərlərin vəhdəti olan multikulturalizm olmadan heç bir böyük sivilizasiya mövcud ola bilməz. Əgər hansı cəmiyyət məhdud və qapalı olarsa o, böhrana məhkumdur. Qloballaşma dövründə bütün əksər demokratik ölkələr multikulturalizmdən kənarda inkişaf edə bilməz. Bu gün Qərbdə multikulturalizmin böhranından çox bəhs edirlər. Lakin multikulturalizmin böhranı və ya tənəzzülü Qərbdə heç də birmənalı və yekdil qəbul olunmur. Daha çox Qərb dəyəri hesab olunan multikulturalizm digər ölkələrdə, xüsusən Azərbaycanda milli və ümumbəşəri dəyərlər sistemi kimi mövcuddur. Min illərlə multikultural tolerant həyat sürmüş azərbaycanlılar onu özlərinin mənəvi sərvəti kimi mənimsəmişlər. "Multikultural dəyərlər müxtəlif mədəniyyətlərə, dinlərə və sivilizasiyalara tolerant munasibəti ifadə edir. Yalnız tolerant cəmiyyətlərdə multikulturalizm müxtəlif xalqları birləşdirən mədəni dəyərlər sisteminin formalaşmasına gətirib çıxarır və qarşılıqlı zənginləşməyə təsir edir. Bu halda müasir dünyada bir məsələ hamını düşündürür. Bu gün Avropa multikulturalizmin böhranını bəyan edir və onu qəbul edir. Qərb cəmiyyətinin siyasi liderlərinin və intelektual dairələrinin multikulturalizm siyasətinin böhranı haqqındakı fikirləri nə dərəcədə realdır? Bəlkə, multikulturalizm Qərb ideologiyası kimi həyat tərzi olaraq haqq qazanmadı?" [1]. Bu suallara cavab verilərkən multikulturalizmin yalnız Qərb və ya ümumbəşəri dəyər kimi qiymətləndirilməsi problemi ortaya çıxır.

Bəs multikulturalizm ozündə hansı ümumbəşəri dəyərləri əks etdirir? Bunlar ilk əvvəl Qərb cəmiyyətinə məxsus demokratiya, insan haqları, tolerantlıq, liberal prinsiplərdir. Lakin hər bir dövlətin multikulturalizmində özünə məxsus spesifik cəhətlər də vardır. Azərbaycanda tolerantlıq və multikulturalizmin öz tarixi kökləri var. Müasir Azərbaycan cəmiyyətində onlar inkişaf edir və dövlət səviyyəsində təqdim edilir. Respublikada müxtəlif xalqlar və etnik qruplar mədəniyyətlərarası dialoq, tolerantlıq, dinc yanaşı yaşama mədəniyyətlərinin qarşılıqlı əlaqəsi hökm sürür. "Azərbaycan cəmiyyətində unikal dözümlülük, tolerantlıq və mədəniyyətlərarası dialoq mühiti multikulturalizmin inkişaf modeli kimi diqqəti cəlb edir" [2]. Müəllif bu gün Azərbaycan cəmiyyətində multikulturalizm modelinin humanizm və qonaqpərvərlik prinsipinə əsaslandığını və beynəlxalq səviyyədə tanındığını gostərir.

Zəngin tarixə, mədəniyyətə, adət-ənənələrə malik Azərbaycanda multikulturalizm, dostluq, ahəngdarlıq və həmrəylik həyat tərzinin tərkib hissəsinə çevrilmişdir. Qərblə Şərqin qovşağında yerləşən Azərbaycan multikulturalizm modelində müxtəlif sivilizasiyalar və mədəni ənənələr, milli və ümumbəşəri dəyərlər vəhdət təşkil edir. Azərbaycanda multikulturalizm mühitinə müxtəlif xalqla-

rın-rusların, ukraynalıların, belarusların, almanların miqrasiyası təsir etmişdir. Azərbaycan multikultural mühitinə ən ciddi təhlükəni uzaq ölkələrdən Azərbaycana köçürülmüş ermənilər təşkil etmişdir. Özünün düşmənçilik, separatizm fəaliyyəti ilə ermənilər Azərbaycanın ərazi bütövlüyünü pozmuş, əzəli torpaqlarımızı işğal etmişdir. Bir çox Avropa xalqları Azərbaycanda məskunlaşmış, burada tolerantlıq və multikulturalizm mühitində yaşamışlar. Onlar sərbəst dinlərinə etiqad etmiş, milli mədəni dəyərlərini qoruyub saxlaya bilmişlər. Məhz bu cəhətlərinə görə Azərbaycan Respublikası prezidenti cənab İlham Əliyev IV Bakı Beynəlxalq Humanitar forumundakı çıxışında demişdir: "...Biz Azərbaycan olaraq ölkələr arasındakı əlaqələrin inkişafı üçün humanitar aspektlərə daim böyük diqqət göstərmişik. Çünki bizim tarixi keçmişimiz, mədəniyyətimiz bunu diktə edir. Əsrlər boyu Azərbaycanda çoxkonfenssiyalı, çoxmillətli cəmiyyət formalaşmış və müstəqillik dövründə bu müsbət meyllər daha da güclənmişdir. Azərbaycanda bütün xalqlar dostluq, mehribanlıq şəraitində, bir ailə kimi yaşayır. Heç vaxt Azərbaycanda dini, milli zəmində qarşıdurma, anlaşılmazlıq olmayıb və bu bizim böyük sərvətimizdir. Çünki hər bir ölkənin gücünü əlbəttə ki, bir neçə amil müəyyən edir-siyasi imkanlar, iqtisadi güc və eyni zamanda, cəmiyyətdə mövcud olan ab-hava,sağlam mühit və həmrəylik duyğuları. Hesab edirəm ki, bu baxımdan Azərbcaycanın təcrübəsi çox müsbətdir və biz öz işimizlə dünyada gedən proseslərə müsbət töfhəmizi veririk" [3]. Çıxışdan göründüyü kimi Azərbaycan multikulturalizm modeli milli identikliklə yanaşı ümumbəşəri dəyərləri, mədəni müxtəlifliyi də özündə əks etdirmişdir.

Multikulturalizm mədəniyyətlərin qovuşması, onların qarşılıqlı nüfuz etməsi, zənginləşməsi və milli mədəniyyətlərin ümumbəşəri zəmində inkişaf etməsi prosesidir. Məlum olduğu kimi, "Ümumbəşəri dəyərlərin tərəfdarları belə cəmiyyətlərdən (milli multikultural cəmiyyətlər nəzərdə tutulur - A.G.) onların mədəni sahələrinə müxtəlif xalqların mədəniyyətlərinin də daxil edilməsini tələb edirlər... Nəticədə çoxəsrlik mədəni dəyərlərini və inkişaf etmiş mədəni ənənələrini tamamilə dağılması baş verir. Bu qovuşma isə ortaq mədəniyyətə gətirib çıxarır. Əgər mədəni inkişafdakı səviyyəsi aşağıdırsa şübhəsiz ki, yüksək mədəniyyətə malik ölkələrin multikulturalizmi iflasa uğrayır" [4]. Müəllifin multikulturalizmin milli mədəniyyətlərə mənfi təsiri fikri ilə razılaşmırıq. Xüsusilə onun iddiasına görə multikulturalizm müxtəlif inkişaf proseslərinin kompleksi olub bir çox mədəniyyətlərin milli mədəniyyətə zidd olması və milli identikliyin mövcudluğuna qarşı çıxmasıdır. Bizcə Azərbaycan multikulturalizm modelinin gücü onun milli və ümumbəşəri vəhdətinə əsaslanmasıdır.

Ümumbəşəri multikultural dəyərlərin milli-mədəni dəyərlərə, milli mədəniyyətə və milli identikliyə mənəvi təsir etdiyini iddia edən E.Abdullayevin əksinə, Bakı Slavyan Universitetinin professoru Etibar Nəcəfov dünya multikulturalizm modellərini müqayisə edərək aşağıfaki qənaətə gəlmişdir:

1) Multikulturalizm - pozitiv sosial təzahürdür. O, cəmiyyətin inkişafı üçün münbit şərait yaradır; etnik münaqişələrin qarşısını alır və müxtəlif xalqlar arasında etimadı möhkəmləndirir. 2) Multikulturalizm - cəmiyyətin mədəni müxtəliflik əleyhinə etirazını səngitmək üçün alternativ siyasət kimi meydana gəlmişdir; 3) Demokratiya multikultural cəmiyyətin formalaşmasında ən mühüm amillərdən biridir; 4) Bölgələrin tarixi inkişafının xüsusiyyətləri multikulturalizmin fərqli modelinin yaranmasını müəyyən etmişdir; 5) Multikulturalizmin müxtəlif modelləri arasında bəzi fərqlərin olmasına baxmayaraq, heç şübhəsiz ki, multikultural cəmiyyətin formalaşmasında və multikultural ətraf mühitini dəyişməsində aparıcı rol dövlətə məxsusdur" [5]. Müəllifin mülahizələrinə görə, multikulturalizm mədəni müxtəlifliyi formalaşdıran, demokratiyanın məhsulu olan, dövlət tərəfindən dəstəklənən, fərqli modellərlə təzahür edən sosial hadisədir. Burada multikulturalizm dəyərdən çox siyasət və sosial fenomen kimi təqdim olunmuşdur.

Rusiya Federasiyası Prezidenti yanında Dövlət Qulluğu və Xalq Təsərrüfatı Akademiyasının əməkdaşı Olqa Astafyeva multikulturalizmi dünyada fərqli modellər şəklində ziddiyyət doğuran mürəkkəb və dinamik anlayış kimi səciyyələndirir: Bu modellərin bir ölkəyə uyğunlaşması mümkündür, ancaq onlar digər şəraitdə heç cür tətbiq edilə bilməz. Çünki istənilən model əsrlərlə formalaşmış müəyyən dəyər-məna bazasına oturuşur və ona aid olur" [6] Bununla multikulturalizm haqlı olaraq dəyər hesab olunur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünyada multikulturalizmin iflasa uğramasından narahat olaraq multikulturalizmin alternativi kimi ayrı-seçkiliyin, irqçiliyin, ksenofobiya-

nın, islamofobiya və antisemitizmin olduğunu göstərir: "Biz bu təhlükəli meyllərə qarşı öz səsimizi ucaltmalıyıq. Əlbəttə ki, bunu, ilk növbədə, dövlətlər etməlidirlər. Eyni zamanda, dövlətlərin bu siyasətini böyük dərəcədə hər bir cəmiyyətin siyasi, ictimai-elmi elitası, ictimai rəy müəyyən edir. Heç bir dövlət və hökumət başçısı ictimai rəyi nəzərə almaya, ona məhəl qoymaya bilməz. Ona görə hesab edirəm ki, biz birgə səylərimizlə bu məsələləri açmalı və danışmalıyıq. Narahatedici məsələlər ətrafında fikirlərimizi bildirməliyik, lazım gəldikdə irad tutmalıyıq. Biz tərəfdaş kimi, dost kimi bu məsələlərə öz fikrimizi bildirmələyik. Biz Azərbaycanda çalışırıq ki, yaşadığımız bölgədə regional əməkdaşlıq inkişaf etsin, millətlərarası munasibətlər daha da yaxşılaşsın, dinlərarsı dialoq güclənsin. Bizim imkanımız var. Çünki bizim keçmizimiz, dediyim kimi, imkan verir ki, bu məsələlərə böyük diqqətlə yanaşaq. Biz bu məsələləri bilirik. Çünki həm Azərbaycan özü çoxmillətli, çoxkonfenssiyalı ölkədir, həm də keçmişdə müxtəlif dinlərin nümayəndələri Azərbaycanda birgə yaşamışdır. Müasir dünyada biz hamımız bir-birimizlə bağlıyıq. Eyni zamanda,Avropa qitəsində miqrantlara qarşı münasibətin pisləşməsi, "multikulturalizm iflasa uğrayıb" kimi bəyanatların verilməsi və ayrıseçkiliyə meylli olan siyasi qüvvələrin daha da böyük səs toplaması, əlbəttə ki, hamımızı narahat etməlidir" [3]. Bununlada Azərbaycan multikulturalizm modelinin bir tərəfdən milliənənələrə, kökünə, tarixinə, milli dəyərlərə, digər tərəfdən islamdünyasına, Avropa dəyərlərinə, ümumbəşəri dəyərlərə bağlı olduğu, multikulturalizmin alternativi olmadığı bildirilir.

Müxtəlif milli cəmiyyətlərdə, o cümlədən Azərbaycanda multikultural reallığın dərk olunmasına müxtəlif yanaşmalardan aydın olur ki, müxtəlif tarixə, mədəniyyətə və identikliyə malik olan insanların dinc yanaşı yaşamasına ümumi, ümumbəşəri, universal qarşılıqlı tolerantlılıq prinsipləri əsasında nail olunur. Mürəkkəb etnomədəni və etnososial mühitdə sosial stabilləşmənin spesifik xüsusiyyətləri vardır. Azərbaycan tədqiqatçısı F.Cəbrayılova göstərir ki, "multikultural Azərbaycan mədəniyyətinin Qərb-Şərq spektrində qarşılıqlı təsiri, milli və ümumbəşəri dəyərlərə söykənən milli mədəniyyətimiz harmonik inkişaf edir, mədəniyyətimizin modernləşməsinə ümumdünya dəyər və ənənələri təsir edir.

Azərbaycan milli mədəniyyəti ənənəviliyin və müasirliyin, millilik və ümumbəşəriliyin vəhdətinə əsaslanan mədəniyyətdir. Dünyanın mədəni vəhdəti müasir bəşəriyyətin və vahid ümumbəşəri mədəniyyətin yaranmasına səbəb olmuşdur. Bu baxımdan Azərbaycandakı milliliyi onun dili, dini, mənəviyyatı, mədəni-mənəvi, maddi-mədəniyyət nümunələri, ədəbiyyatı, incəsənəti, folkloru təşkil edirsə, ümumbəşəri dəyərlər isə müxtəlif xalqların və nəsillərin əsrlər boyu formalaşdırdığı, meydana çıxardığı ən yaxşı bədii-poetik sənət incilərindəki ideyalar, elmi-istehsalat fəaliyyəti nəticəsində təşəkkül tapan dəyərlərdən ibarətdir" [7, 139]. Müəllif Azərbaycan multikulturalizm modelini milli dəyərlərlə yanaşı ümumdünya prosesi olan "qloballaşma", "modernləşmə" (yəni Qərbləşmə) "avropalaşma", "postmodernləşmə" adlanan ümumbəşəri dəyərləri də özündə əks etdirir.

Bəzi hallarda ümumbəşəri dəyərlərin və yuxarıda adı çəkilən proseslərin milli mədəniyyətlərin müxtəlifliyinə, qarşılıqlı zənginləşməsinə şərait yaratmaqla yanaşı milli-mədəni dəyərlər və özünəməxsusluq üçün təhlükəli proses kimi də qəbul olunur.

Azərbaycan multikulturalizm modelində milli və ümumbəşəri dəyərlərin nisbəti məsələsi tədqiqatçılar tərəfindən belə aydınlaşdırılır və konkpektləşdirilir: Avrosentrizm və Transatlantik baxışlara əsaslanan vesternləşmə Şimali Amerika, Qərbi Avropa mədəni dəyərlərinin dünyaya qeyri-Qərb cəmiyyətlərinə yayılmasıdır. Qərbləşmədə kapitalizmin istehlak mədəniyyəti üstün mövqe tutur, vahid Avropa mədəniyyətinin yaranmasına, milli-mənəvi dəyərlərin aradan qaldırılmasına yönəlmiş prosesdir. ABŞ və Avropa Birliyi qloballaşma vasitəsilə özlərinin mədəni hegemonluğuna əsaslanan mədəni imperalizm formalaşdırırlar. Modernləşmə etnik-milli identikliklə universalizmin sintezinə əsaslanır. Modenləşmə dünyəviləşmənin, sekulyalaşmanın, hüquqi dövlət və vətəndaş cəmiyyəti mədəniyyətinin reallaşmasıdır.

Zəngin və qədim tarixə malik Şərqlə Qərbin sintezindən ibarət Azərbaycan türk-müsəlman mədəniyyəti dünyanın mədəniyyət xəzinəsinə daxil olmuş mədəni incilərdəndir. Milli-mənəvi dəyərləri və dövlətçilik ənənələrilə fərqlənən Azərbaycan mədəniyyətində zərdüştilik, xristianlıq, islam mədəniyyətləri, Şərq, Qərb, slavyan, Qafqaz, İran, ümumtürk mədəniyyətləri ehtiva olunmuşdur [7, 139-140]. Bununla da ümumbəşəri dəyərlərin necə adlanmasından asılı olmayaraq Azərbaycan milli mədəniyyətinə multikulturalizm ideyası kimi nüfuz etdiyi və burada milli özünəməxsusluq, milli

identikliklə yanaşı mədəni müxtəlifliyin və plüralizmin gerçəkləşməsi forması kimi təzahür etdiyi göstərilir.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev Bakı Beynəlxalq Humanitar forumunda çıxışında Azərbaycanın multikulturalizm modelinin milliliyi və ümumbəşəriliyi məsələsinə toxunaraq demişdir: "Bizim ədəbiyyatımız, incəsənətimiz, ana dilimiz, milli dəyərlərimiz vardır. Bizim milli dəyərlərimiz ümumbəşəri milli dəyərlər əsasında qurulubdur. Hesab edirəm ki, qloballaşan dünyada xüsusilə gənc nəsil üçün milli-mənəvi dəyərlər xüsusi rol oynayır və oynamaqdadır. Hər halda biz Azərbaycanda buna böyük əhəmiyyət veririk və onu da qeyd etməliyəm ki, başqa mədəniyyətə, dinə, tarixə olan hörmət öz mədəniyyətinə, tarixinə, öz dininə olan hörmətdən başlamalıdır" [8, 10]. Buradan Azəbaycan multikulturalizm modelində milli dəyərlərə tolerant münasibətin ümumbəşəri dəyərlərə və dözümlülüyün yaranmasına gətirib çıxardığı aydın olur.

Nəticə. Azərbaycanın multikulturalizm modeli demokratik dövlət strategiyası olan mədəniyyətlərin qarşılıqlı əlaqəsi və təsiri şəraitində tolerant münasibət və dinc yanaşı yaşama prinsiplərinə əsaslanan, fərqli mədəniyyətlərə dözümlülük mövqeyinin ifadəsi olub milli və ümumbəşəri dəyərlərin vəhdətidir. Polietnik, demokratik, huquqi və unitar dövlət kimi Azərbaycanda avtoxton milli çoxluğun və allaxton milli azlıqların, etnik azlıqların ümummilli həmrəyliyinin dinlərarası, sivilizasiyalararası və mədəniyyətlərarasi dialoqun hökm sürdüyü bir dövlətdir. Bu gün Azərbaycan milli cəmiyyəti mədəni pluralizmə əsaslanır. Burada multikulturalizmin əsas vəzifəsi milli dövlət çərçivəsində milli azlıq və çoxluğun huquq bərabərliyini təmin etmək, bütün mədəniyyətlərin qorunub saxlanmasına və inkişafına şərait yaratmaqdır. Azərbaycan multikulturalizm modeli polimədəni cəmiyyətin stabilliyinə, etnomədəni münasibətlərin ahəngdarlığına əsaslanır.

ƏDƏBİYYAT

1. Габиббайли А. Мультикультурализм :обшечеловеческая идея или западные ченности ? Часть I. URL: htpp://newtimes.az/ru/politics/1054 [06.11.2023].
2. Зейналова С. Из истории мультикультурализма в Азербайджане. URL: htpps/www./by ivanovka.net [06.11.2023].
3.Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin IV Bakı Beynəlxalq Humanitar formu :Multikulturalizm:nailiyyətlər və problemlər. URL: https://www.bakuform.az./az/multikultura, -nailiyyətlər-ve-problemlər/fiad=258 [06.11.2023].
4.Абдуллабеков Э. Мультикультурализм – важный асрект толерантности // Эхо. Обшественно-политическая газета. 6 февраля 2016 № 23 (3662).
5. Nəcəfov E. Müxtəlif ölkələrdə multikulturalizm siyasətinin müqayisəsi təhlili // Multikulturalizm: nailiyyətlər və problemlər. URL: https://www.baku.form.az./az/:nok=2258 [06.11.2023].
6. Astafoyeva O. Mədəni siyasət strategiyasında multikulturalizm ideyalarının dinamikası / Multikulturalizm nailiyyətlər və problemlər. URL: https://www.bakuform.az./az/....=2258 [06.11.2023].
7. Cəbrayılov F.S. Mədəniyyətlərarası münasibətlərdə eynilik və müxtəliflik problemi:sosial-fəlsəfi təhlil. F.ü.f.d elmi dərəcəsi almaq üçün dissertasiya. Bakı, 2016, 140 s.
8. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bakı Beynəlxalq Humanitar Formunda nitqi / Bakı Beynəlxalq Humanitar Formunun materialları (4-5 oktyabr 2012 cı il. - Bakı: "Şərq-Qərb", 2013, s.9-14.

ГЮЛАРА АББАСОВА
Доцент кафедры «Общественных наук»
Азербайджанского университета культуры и искусств

РОЛЬ МУЛЬТИКУЛЬТУРАЛИЗМА В ЗАЩИТЕ НАЦИОНАЛЬНЫХ И НРАВСТВЕННЫХ ЦЕННОСТЕЙ

Азербайджанская модель мультикультурализма представляет собой сочетание национальных и глобальных ценностей. На протяжении всей истории автор занимался исследова-

нием национальной солидарности, толерантности, взаимопонимания и уважения, гуманизма и гостеприимства, процесса национальной солидарности, процесса межрелигиозного, межкультурного и межцивилизационного диалога между всеми национальными меньшинствами, этносами и народами. Он добился своей цели, добился таких оптимистических результатов в своем творчестве, что в условиях провала мультикультурализма на Западе азербайджанская модель мультикультурализма успешно развивается и показывает себя всему миру как прекрасная модель.

Ключевые слова: мультикультурализм, национальные ценности, общечеловеческие ценности, азербайджанская модель, толерантность, культурное разнообразие, культурный плюрализм, традиционные ценности, национальное меньшинство и большинство.

GULARA ABBASOVA
PhD, Associate professor of the Department of "Social Sciences" of the Azerbaijan University of Culture and Arts

THE ROLE OF MULTICULTURALISM IN THE PROTECTION OF NATIONAL AND MORAL VALUES

Azerbaijani model of multiculturalism is a combination of national and global values. The author has involved to research throughout the history Azerbaijan in the process of national solidarity, tolerance, mutual understanding and respect, humanism and hospitality, the process of national solidarity, inter-religious, inter-cultural and inter-civilizational dialogue between all national minorities, ethnic groups and nationalities, he has reached the purpose set before him. In his work, he has come such optimistic result that in the condition of collapse of multiculturalism in the West, Azerbaijan`s multiculturalism model is successfully developing and show itself to whole World such a good model.

Keywords: multiculturalism, national values, universal values, Model of Azerbaijan, tolerance, cultural diversity, cultural pluralism, traditional values, national minority and cluster.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 06 noyabr 2023-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 dekabr 2023-cü il.
Rəyçilər: t.ü.f.d. Zəminə Əsgərova, t.e.d. Sevinc Yusifzadə.